

# “Hakimiyyət formulu”

***“Rossiya 24” telekanalında TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın dövlət müstəqilliyimizin bərpasının 30 illiyinə və Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunan “Hakimiyyət formulu” verilişində Azərbaycanın son 18 ildə keçdiyi uğurlu inkişaf yolundan bəhs edilib. Bu dövrdə əldə olunan müsbət nəticələr həm ölkə rəhbərinin, həm də verilişin müəllifinin səsləndirdikləri fikirlərdə öz ifadəsini tapıb. On il bundan əvvəl dövlətimizin başçısı ilə Mixail Qusman arasında olan söhbət epizodundan başlayan verilişdə müəllif o zaman Prezident İlham Əliyevə verdiyi sualı bir daha yenidən xatırladıb: “İlham Heydər oğlu, istəristəməz artıq 50 yaşın astanasındasınız. Çox iş görülüb. Şəxsən Siz öz qarşınızda növbəti yarım əsr üçün hansı vəzifələri qoyursunuz?”.***

Ölkə rəhbəri isə cavabında Azərbaycan Prezidenti kimi sabaha baxmağın, gələcəyi düşünməyin bugünün problemlərini aradan qaldırmaq baxımından mühüm önəm daşıdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı daha sonra həmin fikrinə əlavə edərək vurğulayıb: “Mən məhz sizin dediyiniz kimi, yarım əsr irəliyə baxıram. Energetika sahəsində bu müddət 100 ildir. Yəni, Azərbaycan ən azı yüz il beynəlxalq enerji bazarında əvəzedilməz və çox mühüm aktora çevrilir. Biz nəqliyyat sahəsində elə infrastruktur yaradırıq ki, o, əsrlər boyu ölkəmizin rifahı naminə işləyəcək. Təhsil – o da bir neçə onillik irəlini nəzərdə tutmalıdır”.

Verilişdə səsləndirildiyi kimi, hazırda gerçəkləşdirilən bütün layihələrin uğurlu nəticələrinin kadrların, informasiya texnologiyalarının hazırlanmasının gələcək üçün qoyulan investisiya olduğu bildirilib.

Dövlətimizin başçısının sözləri ilə desək, bu, başqa cür də mümkün deyil, çünki dünya irəliyə doğru hərəkət edir, Azərbaycan da bu məsələdə geri qalmır, prosesə öz töhfəsini verir. BMT-nin Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi önəm daşıyır. Respublikamızın 2030-cu ilin gündəliyinin icrası barədə üçüncü Könüllü Milli Hesabat təqdim edən 12 ölkədən biri və regionumuzda birinci dövlət olması bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, verilişdə, həmçinin Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi digər uğurlara da toxunulub. Son onilliklərdə ölkə iqtisadiyyatının 3 dəfədən çox artması, Azərbaycanın gəlir səviyyəsinin ortadan yuxarı dövlətlər qrupuna daxil olması, respublikada davamlı demoqrafik artımın müşahidə edilməsi, eyni zamanda, neft sənayesinin inkişafı nəticəsində hasilatın yüksəlməsi faktları diqqətə çatdırılıb.

“Hakimiyyət formulu”nda Azərbaycanın hazırda dünyada enerji təhlükəsizliyinə nail olan liderlər sırasında yer alması da xatırladılıb. Bu fikrin təsdiqi kimi, 2017-ci il sentyabrın 14-də Bakıda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərin sulu hissəsinin birgə işlənməsi barədə yeni sazişin imzalanması, adı çəkilən layihəyə 36 milyard dollardan çox sərmayə qoyulması və bunun nəticəsində 500 milyon ton neft çıxarılması bildirilib. Bütün bunlarla bərabər, Azərbaycanın dünyada enerji təhlükəsizliyinə 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu qaz kəmərinin – TANAP-ın rəsmi açılışı ilə mühüm töhfə verməsi də xatırladılıb.

Verilişdə səsləndirilən belə bir fakt da diqqət çəkib: Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə, proqnozlaşdırılan ehtiyatlar isə təqribən 3 trilyon kubmetrə bərabərdir. Bu isə ölkəmizin dünyanın enerji təhlükəsizliyində bundan sonra da önəmli rol oynayacağından xəbər verir.

“Hakimiyyət formulu” verilişində Azərbaycanda neft sənayesində əldə edilən uğurlarla bərabər, qeyri-neft-qaz sektorunda reallaşdırılan layihələr barədə də danışılıb. Başqa sözlə, respublikamızın neftdən asılılıqdan xilas olması ilə əlaqədar gördüyü tədbirlər və bunun nəticəsində qazanılan müsbət nəticələr barədə bəhs edilib. Müəllif Mixail Qusman, həmçinin deyib: “Azərbaycan əlavə regional layihələr həyata keçirir. Şərq–Qərb, Şimal–Cənub və Şimal–Qərb nəqliyyat dəhlizləri sayəsində bu ölkə Avrasiyanın əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.

Şimal–Cənub Nəqliyyat Dəhlizinin Azərbaycan hissəsi yekun mərhələyə qədəm qoyub. Bu dəhliz Hindistanı, Pakistanı, İranı, Azərbaycanı, Rusiyanı və Şimali Avropa ölkələrini birləşdirəcək”.

Verilişin müəllifinin sözlərinə görə, 2017-ci il oktyabrın 30-da Bakı–Tbilisi–Qars dəmir yolu istifadəyə verilib, Trans–Avropa və Trans–Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsi təmin edilib. Bu isə o deməkdir ki, mahiyyət etibarı ilə Qədim İpək Yolu bərpa olunub. 2018-ci il mayın 14-də Bakının Qaradağ rayonundakı Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin təntənəli şəkildə açılması isə Azərbaycanın nəqliyyat potensialının daha səmərəli icrasına əlverişli şərait yaradıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin tapşırığına əsasən, yükaşırma qabiliyyəti 15 milyon ton olan adı çəkilən kompleksin də daxil olduğu Ələt qəsəbəsində yaradılan azad ticarət zonası 130 milyon nəfəri əhatə edən regional miqyaslı bazara xidmət edəcək.

Ümumiyyətlə, verilişdə səsləndirildiyi kimi, Azərbaycanda bütün nəqliyyat-kommunikasiya layihələri praktiki olaraq başa çatdırılıb. Nəqliyyat–logistika infrastrukturunun yaradılması tamamlanıb. Bu gün respublikamız daşımanı çoxaltmaq və Azərbaycanın tranzit imkanlarını artırmaq üçün tərəfdaşlarla, qonşularla səmərəli işləmək kimi qarşıya mühüm bir vəzifə qoyub.

“Hakimiyyət formulu”nda səsləndirilən uğur formulunun əsasında hansı amillər dayanır? Bu sualın cavabı isə sadədir: Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən davamlı yüksək göstəricilər, başqa sözlə, dinamik yüksəliş uzunmüddətli, düzgün strategiyanın, iqtisadi sahədə aparılan islahatların, şəffaflıq, korrupsiya və rüşvətxorluqla ciddi mübarizənin gerçəkləşdirilməsinin məntiqi nəticəsidir.

Ölkə rəhbəri Azərbaycana rəhbərliyinin bütün mərhələlərində sosial–iqtisadi islahatların həyata keçirilməsinə mühüm önəm verib. Bu baxımdan pandemiya şəraitində reallaşdırılan tədbirlər də diqqət çəkib. Bunun sayəsində hazırda respublikamızda sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradılıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhran şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti nəticəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2021-ci ildə də dövlətimizin başçısının rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Verilişdə ölkəmizin sosial-iqtisadi sahələrdə əldə etdiyi bir sıra mühüm uğurlarla yanaşı, Azərbaycanın respublika daxilində koronavirus pandemiyasına qarşı apardığı səmərəli mübarizə, eyni zamanda, bu bəlanın dünya ölkələrində də yayılmasının qarşısının alınması məqsədilə reallaşdırdığı tədbirlər barədə də ətraflı danışılıb. Respublikamızda vaksinasiya kampaniyasının uğurla aparılması, hazırda hər yüz nəfər üçün işlədilən edilən vaksin dozalarının həcminin 80 faizdən çox olması, əhalinin və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün 2 milyard 700 milyon dollar həcmində sosial-iqtisadi paketin təqdim olunması, rəsmi Bakının Ümumdünya Səhiyyə Təşkilatının proqramlarına 10 milyon dollar məbləğində könüllü maliyyə yardımı, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərməsi və dörd dövlətə təmənnasız 150 min doza vaksin göndərməsi faktları da diqqətə çatdırılıb. Bu xeyirxah fəaliyyət beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirilib. Bununla bağlı dövlətimizin başçısı deyib: “Bizim təşkil etdiyimiz, həyata keçirdiyimiz işi Ümumdünya Səhiyyə Təşkilatı da qiymətləndirib. Bu təşkilatın Baş direktorunun mənə ünvanladığı məktubda Azərbaycan rəhbərliyinin fəaliyyəti yüksək qiymətləndirilib, habelə Azərbaycan nümunəvi ölkə, yəni bu bəla ilə mübarizədə nümunə göstərən ölkə adlandırılıb”.

“Hakimiyyət formulu” verilişində Azərbaycanın beynəlxalq təşkilatların tədbirlərində fəal və səmərəli fəaliyyəti, həmin qurumlar tərəfindən ölkəmizə böyük hörmət və etimadla yanaşılması, respublikamızın beynəlxalq arenada çox böyük nüfuz qazanması, 44 günlük Vətən müharibəsində xalqımızın möhtəşəm tarixi qələbə əldə etməsi, Rusiya-Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrində yüksək səviyyədə əməkdaşlığın nəzər çarpması və digər mühüm məqamlar barədə ətraflı danışılıb.

Verilişdə Azərbaycanla bağlı səsləndirilən fikirləri belə ümumiləşdirmək olar: son onilliklərdə Azərbaycanda reallaşdırılan islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına yönələn tədbirlər bir sıra siyasi dəyişiklikləri və struktur yenilənmələri ilə müşayiət olunub. Respublikada siyasi transformasiya mühiti də getdikcə şəffaflaşıb. Struktur və kadr islahatlarının davamlı xarakter alıb. Bütün bunlarla bərabər, beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilən korrupsiya ilə mübarizə tədbirləri daha da gücləndirilib, bu istiqamətdə dövlət qurumlarının hər bir pilləsində şəffaflığın qorunması diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi, habelə məşğulluq sahələrində şəffaflığın, həmçinin sosial ədalətin tam təmin olunması ilə bağlı vaxtaşırı ciddi, önəmli addımlar atılıb. Bütün bu tədbirlər, gerçəkləşdirilən islahatlar, yeniləşmələr ölkənin gələcək dayanıqlı inkişafının şərtləndirilməsi, ən başlıcası isə yoxsulluğun azaldılması məqsədi daşıyır.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***